# SÖZÜN SƏDAQƏTİ

## (Sədaqət Əliqızının yaradıcılığı haqqında qeydlər)

**Fikirlərin, duyğuların, düşüncələrin güzgüsü Sözdür. Bu güzgü xeyirxah və nəcib əməlləri, qəhrəmanlıqları, yurd, vətən sevgisini, həmçinin mayasında Tanrı işığı olan bütün sevgiləri, gözəllikləri öz mübarək üzündə əks edir. Müqəddəs sözün saf çeşməsindən içənlər o insanlardır ki, onların alın yazısından ulu Yaradanın təbəssümü boylanır. Sədaqət Əliqızı belə istedadlı qələm sahiblərindəndir.**

***Ulu söz diyarı Şamaxı***

torpağında dünyaya göz açıb. Öz məzmunu ilə seçilən maraqlı və mənalı bir həyat yolu keçib. Sədaqətxanımın şeirlərində millətə, yurda, vətənə, doğma ocağa bağlılıq hissi məxsusi poetika ilə səciyyələnir. Milli-mənəvi dəyərlərin, intizar, həsrət dolu sevginin, ləyaqət və insanpərvərlik duyğularının bədii tərənnümü onun poetik nümunələrində səmimi bir kaloritdə öz ifadəsini tapır.

Onun şeirlərində zaman, təbiət, insan amili bədii təfəkkürün tərkib hissəsi kimi çıxış edir və hər bir poetik nümunəsi bu kontekstdən səciyyəvidir. İstedadlı şairin poetik məfkurəsi milli düşüncənin geniş üfüqlərini əhatə edir.

Sədaqət xanımın poetikasının lokomativi vətənpərvərlik mövzusudur və bu fakt bədii-fəlsəfi dəyəri ilə onun yaradıcılığına böyük sanbal gətirib. Onun şeirləri bədii-ictimai siqləti ilə sevilir və oxucunu düşündürür.

Vətənimizin böyük ağrısı olan Qarabağ dərdini, Xocalı ağrısını Sədaqət xanım obrazlı poetik detallarla və səmimi duyğularla ifadə edir. Milli ağrımıza güzgü tutan poetik nümunəyə diqqət edək.

*...hələ də məzarsız şəhidlər var o, boz çöllərdə.*
*Bu gün isə adamlar çiçək düzür,*
*onların xatirəsinə qoyulan abidəyə*
*Dünya susaraq sakit baxır bu mənzərəyə.*
*Yamanca çox uzandı bu sükut...*

Gənc yaşlarından ədəbi-bədii yaradıcılığa maraq göstərən Sədaqət xanımın qələm təcrübələrinin tarixi xronikası onun püxtələşmis qələm sahibi olmasından soraq verir.

Əlbəttə, uğurlu yaradıcılıq prosesi üçün peşəkarla yanaşı, şair ovqatının "sarı sim"də gəzişməsi vacib şərtlər sırasındadır. Bu mənada da Sədaqət xanımın öz yaradıcılıq yolunda bu önəmli şərtə diqqət yetirir, yəni könlünə yatan, onu həyacanlandıran mövzular, hadisələri qəlbinin poetik işığında təqdim edir.

Çağdaş poeziyamızda öz sanbalı ilə diqqət çəkən lakonik şeirlərdən birinə nəzər yetirək.

**Səni gördüyüm gün gözlərimə**
**Həkk olunmuşdu rəsmin.**
**Sonra ayrılıq...**
**O qədər ağladım ki,**
**Yuyulub getdi əksin.**

Şair düşüncəsinin milli ruhumuzun, genetik yaddaşımızın dan yerindən gələn poetik münderıcəsi heyrət doğurur. Məzmun dolğunluğu, forma rəngarəngliyi bu poetik nümunənin məziyyətlərini daha da zənginləşdirir.

Lirik qəhrəmanın yaşadığı həsrət ağrısının dərinliyi ilə bərabər eşqin ucalığını, qüdrətini daha parlaq və gözəl ifadə etmək üçün istifadə olunan bədii təsvir və ifadə vasitələrinin təravəti şairin poetik bacarığının ehtivasıdır. Şairin obrazlı düşüncəsinə diqqət edək:

**Nələr çəkdiyimi hardan biləsən,**
**Dərd var ürəyimə özümdən ağır,**
**Gözümdə yaş yoxsa, demə ağlamır,**
**Mənim göz yaşlarım qəlbimə axır.**

**Bir bax, nəm çəkibdi çölüm içindən,**
**Çürüyür köhnəlmiş divarlar kimi.**
**Mənim vaxtsız gedən qərib köçümdən,**
**Göylər elə dolub, ağlayır sanki.**

**Kül olmuş arzular gözümə dolub,**
**Ah çəksəm havaya sovrulacaqlar.**
**Yanmış ürəyimdə hələ köz qalıb,**
**Toxunsan, əllərin qovrulacaqdır.**

İnsan dühasının ən böyük tapıntısı və insan həyatının ən dəyərli xəzinəsi sözdür. Sözün təbiətinə xas olan keyfiyyətlər çeşid-çeşiddir. Bədii sözün mahiyyəti daha təravətli və çoxmənalıdır. Bədii söz dərin ictimai mənası, əhatəli və güclü realizmi, estetik keyfiyyətləri ilə dolğun məzmun kəsb edir. Bu mənada bədii təfəkkürün, ədəbi yaradıcılığın yolu mürəkkəb münderıcəsi ilə seçilir. Yalnız əhəmiyyətli mövzunun qələmə alınması əsərin ədəbi uğuruna zəmanət verə bilməz. Əsl sənətin gücü dəyərli ideyanın, böyük fikrin obrazlı ehtivasında, təravətli təcəssümündədir. Sədaqət Əliqızının şeirlərinin lirik qəhrəmanı müşahidə qabiliyyəti ilə fərqlənir. Onun fərdi poetik siması təkcə yazdığı şeirlərin üslub xüsusiyyətlərində deyil, həm də hadisələrə yanaşmasında. Onları seçməsində və dəyərləndirməsində, lirik "mən"in əhval-ruhiyyəsini təbii və səmimi poetik boyalarla canlandırmasındadır.

Şairin lirik qəhrəmanı həssas müşahidə qabiliyyətilə həmin proseslərdə fəal iştirak edir. Onun poeziyasında yurd sevgisi, vətənsevərlik, el-oba məhəbbəti, milli özünüdərk və yaddaşa qayıdış duyğusu, böyük önəm daşıyır.

Şairin vətən ətirli şeirlərində torpaq ağrısı, yurd həsrəti məxsusi bədii detallarla əks olunur. "Əsgərə" şeirində məxsusi poetik özünüifadə şairin bədii qüdrətini əyani sərgiləyir.

**Mərmi səslərindən göylər səksənib,**
**Üfüqdə matəmdi, yasdı bu səhər.**
**Buludlar qəm üstə dolub, köklənib,**
**Onları boğurdu göz yaşı, qəhər.**

**Dağlar da igidin ağlayır dillə,**
**El-oba düşübdür yenik qədərə.**
**Düşmənin əlindən açılan güllə**
**Əsgərin köksündə girib səngərə.**

**Köz təki qızardıb yeri al qanı,**
**Torpağı qucmuşdur soyuq bədəni.**
**Titrədir qəlbləri onun son anı,**
**Oyulmuş köksünə qoyub vətəni.**

İstedadlı şairin vətən torpağının ölməz oğullarına, mübarək şəhidlərimizə həsr etdirdiyi şeiri poeziya nümunəsi kimi səciyyələndirmək olar. Vətənpərvərlik duyğularının səmimi və bənzərsiz ifadəsi şairin poetik uğuruna və sözün bədii dəyərinə güzgü tutur.

**Yağış yağan şəhərə**
**Güllə yağdı bu axşam.**
**Həmin günü evlər də,**
**Ürəklərdə söndü şam.**

**Məmləkətin göyləri**
**Bircə anda qaraldı.**



**Toy hənası getməmiş,**
**Qız-gəlinlər dul qaldı.**

**Dodağında donaraq**
**Təbəssümü ah necə,**
**Yuxuladı əbədi**
**Körpələr həmin gecə.**

**Qurban getdi Vətənə**
**Neçə igid oğul, qız.**
**Ölümümüzlə var olduq,**
**Məğlub düşmən - qalib biz.**

Mübarək sözün ətrini duyanlar az deyil. Min illərdir söz var, sözə könül verənlər, sözün işığında yol gedənlər var.

Bəzən adama elə gəlir ki, deyiləsi yeni söz qalmayıb, bir ömür yaşayan insanlar, onun həyata gəlişi və həyatdan gedişi arasında Allaha, cəmiyyətə, təbiətə sevgiylə bağlı hər şey deyilib və yazılıb. Ancaq insan təfəkkürünün və düşüncəsinin sərhədləri nəhayətsizdir. Dünyanın, təbiətin, cəmiyyətin saysız-hesabsız görüntüsü mövcuddur və bu vizuallığı uşaqdan tutmuş qocayadək hər kəs özünəxas rakursdan qəbul edir.

Şairlər bu görüntüləri, bu mövcudluğu özünəməxsus formada poetik duyumla ifadə edirlər. Bununla da insanı həm riqqətləndirən, heyrətləndirən, həm sarsıdan, həm də heyran edən estetik duyğu aləmi yaradırlar. Şairləri yaşadan da bu estetik aləmdir. Sədaqət Əliqızının seirlərindəki bədii-ictimai münderıcə, milli ruhun məxsusi poetik ovqatda ehtivası baxımından çox maraqlıdır.

Obrazlı düşüncə onun şeirlərinin alın yazısıdır.

**Bu səhər qar yağıb çölə**
**yuxularımda geydiyim**
**ağ paltar kimi.**
**Soyuq nəfəsi nəfəsim təki.**
**Küləklə sovrulur, döyür üzümü xırda**
**dənəcikləri.**
**Xoş havaya aldanmış**
**hələ də göy yarpaqlar**
**diksinir üstünə qonan**
**ağ kəpənəyin buz nəfəsindən.**
**Anlayır gecikdiyini qışın ortasında.**
**Bir qış günündə adamlar**
**Təşvişlə tələsir işə.**
**Mənsə bürünüb bahalı şuba əvəzi**
**şerlərimə, qış nağılı adlı**
**şeir yazıram**
**Qarlı Bakı səhərinə.**

O, dilimizin zəngin və rəngarəng təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən bacarıqla istifadə edərək, qələmə aldığı mövzuların bədii həllini, poetik ümumiləşdirməsini özünəməxsus ovqatda təqdim edə bilir. Sədaqət Əliqızının yaradıcılığında məxsusi bir məziyyət var ki, onu başqalarından fərqləndirə bilir. Bu cəhəti şərtləndirən amil geniş və dərin mənada sadəlikdir və bu sadəlikdə bədii zənginlik və kövrəklik mövcuddur.

**Anlamadın bir sözümü,**
**Məndəki o dağ dözümü.**
**Artıq get, yorma özünü,**
**Sən məni duya bilməzsən.**

**Boşdur yalvarmaq ölümə,**
**Cəza vermə sən dilinə.**
**Ha vur günahkar əlinə,**
**Sən onu yuya bilməzsən.**

**Burulğandın gəlib ötdün,**
**Bax arxana nələr etdin.**
**Bir ürək qoparıb getdin,**
**Yerinə qoya bilməzsən.**

Onun şeirlərinin məğzini təşkil edən dərin və poetik ictimai məna uğurlu yaradıcılıq səciyyəsi daşıyır. Sədaqət Əliqızının anasına ünvanladığı poetik məktubun münderıcəsi kövrək və yaddaqalandır.

**Bircə ömür verdi bu Tanrı sənə,**
**Sən onu bölmüsən gör neçə yerə,**
**Balan ayaq açıb, yeriyən günə**
**Qurbanam, demisən sən neçə kərə.**

**Əllərin telimə sığal çəkəndə,**
**Silib ürəyimdən həsrəti-qəmi.**
**Dağlar tək üstünə duman çökəndə,**
**Çatıb harayına gözünün nəmi.**

**Sığdırdın içinə hər cürə dərdi,**
**Qıymadın balana acı sözləri.**
**Gözümdə, könlümdə ən əziz yerdi**
**Başımı qoyduğum ana dizləri.**

**Gül-çiçək qoxulu saçının ətri,**
**Dilin bu cahanda ən şirin dildi.**
**Adını oxşayan şerimin sətri**
**Qələmimdən düşən bir dəstə güldü.**

Misralarda ana sevgisinin ülviliyi, ucalığı özünəməxsus, səmimi poetik detallarla təqdim olunur.

Şairin lirikasında həsrət və qəm motivlərinin yeknəsəkliyi, sentimental notlar, gərəksiz pafos heç vaxt duyulmur.

Onun şeirlərində vətənin, valideyn-övlad məhəbbətinin, doğma ocağın tərənnümü, həmçinin xeyirxahlıq, nəciblik, əzəmət və gözəllik duyğularının bədii müstəvidə səmimi təbliği, bütövlükdə yaradıcılığına dərin ictimai-fəlsəfi münderıcə gətirir.

**Ona daha böyük yaradıcılıq uğurları arzulayıram!**

**BALAYAR SADIQ**